# DÖVLƏT İMTAHAN MƏRKƏZİ 2026/2027-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURALARININ BOŞ QALAN PLAN YERLƏRİNƏ QƏBUL ELAN EDİR

**1.** Dövlət İmtahan Mərkəzi 2026/2027-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerlərinə qəbul olmaq üçün **2026-cı il avqustun 24-dən 30-dək** ixtisaslaşma seçimi elan edir.

Proqram və ixtisaslaşma seçimi "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" (bax: "Magistr" jurnalı, №3, 2026-cı il) ilə tənzimlənir.

2026/2027-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarının boş qalan plan yerlərinə ixtisaslaşma seçiminə magistraturaya 15 fevral, 17 may və 14 iyun 2026-cı il tarixlərində keçirilmiş qəbul imtahanlarının (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən müəyyən edilmiş müsabiqə şərtlərini (bax: Cədvəl 1, səh. 3) ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Keçirilmiş müsabiqə nəticəsində magistraturaya qəbul olmuş bakalavrın müəyyən olunmuş müddətdə təhsil müəssisəsində qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisaslaşma üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu bakalavrların ixtisaslaşmaların boş qalan yerlərinə keçirilən müsabiqədə iştirak etməsinə icazə verilmir.

Ali təhsil müəssisələrinin magistraturalarına qəbul aparılan ixtisaslaşmaların boş qalmış yerlərinin müsabiqəsində iştirak etmək üçün bakalavrlar **2026-cı il avqustun 24-dən 30-dək** DİM-in internet saytının müvafiq səhifəsinə (**https://eservices.dim.gov.az/erizemag/erize**) daxil olaraq seçdikləri ixtisaslaşmaların kodlarını "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə qeyd edib təsdiqləməlidirlər. Hər bir bakalavr 20-dək ixtisaslaşma kodunu seçə bilər. ***Bakalavrın seçdiyi ixtisaslaşmalar seçim cədvəlinə*** *(bax: "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli", "Magistr" jurnalı, №3, 2026-cıı il)* ***əsasən onun seçmək hüququ olduğu və bitirdiyi bakalavr ixtisasına (bəzi ixtisaslaşmalar üçün həmçinin xarici dilə qoyulan tələbə) müvafiq olmalıdır.***

Seçilən bütün ixtisaslaşmalar seçim cədvəlinə əsasən bakalavrın bitirdiyi ixtisasa görə seçmək hüququ olduğu bir və ya daha çox sayda qəbul proqramına aid olmalıdır (qəbul aparılan ixtisaslaşmalar və həmin ixtisaslaşmalara ayrılan yerlərin proqramlar üzrə siyahısı "Magistr" jurnalının bu sayında təqdim olunur).

Bakalavr seçdiyi 20-dək ixtisaslaşmanın kodunu "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"nə istədiyi ardıcıllıqla daxil edir, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiyini qeyd edir və öz ixtisaslaşma seçimini təsdiqləyir.

**2.** İki və ya daha çox ixtisas üzrə bakalavr təhsilinə malik olan şəxslər yalnız ərizə qəbulu zamanı təqdim etdikləri ali təhsil haqqında məlumatlarda (sənəddə) göstərilən ixtisasa uyğun olan ixtisaslaşmaları seçə bilərlər.

**3.** Ali təhsil müəssislərinin jurnalistika üzrə *44* saylı proqrama aid magistratura ixtisaslaşmalarını və xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının *68, 69* və *70* saylı proqramlara aid ixtisaslaşmalarını qəbul imtahanındakı nəticələri müsabiqə şərtini ödəyən və Mərkəz tərəfindən keçirilmiş qabiliyyət imtahanlarını uğurla vermiş bakalavrlar seçə bilərlər. Bakalavrlar bitirdikləri bakalavr ixtisasından asılı olaraq, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasına aid müvafiq qəbul proqramlarının ixtisaslaşmaları ilə yanaşı, nəzəri ixtisaslaşmaları da seçə bilərlər.

**4.** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların dövlət sifarişi üzrə ayrılmış yerlərini seçmək üçün bakalavrın imtahanda ingilis (alman) dilindən topladığı bal 20-dən, ödənişli yerlərini seçmək üçün isə 15-dən, o cümlədən yazı işi (esse) tapşırığı üzrə nəticəsi 2-dən az olmamalıdır .

Xarici dil imtahanını ərəb və ya fars dili üzrə verən bakalavrlar "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli"nə əsasən, *38* saylı və ya *46* saylı proqrama aid olan ixtisaslaşmaları seçə bilərlər.

*Fövqəladə Hallar Nazirliyinin Akademiyasının* magistraturasının ixtisaslaşmalarını yalnız həmin Akademiyanın məzunları seçə bilərlər.

*Milli Aviasiya Akademiyasının* bütün ixtisaslaşmalarını magistraturaya qəbul imtahanında xarici dil kimi yalnız ingilis dilindən imtahan vermiş bakalavrlar seçə bilərlər. Akademiyanın *10 saylı proqram* üzrə ixtisaslaşmalarını yalnız bu təhsil müəssisəsinin məzunu olan bakalavrlar seçə bilərlər.

Ali təhsil müəssisələrinin "Təhsil menecmenti" ixtisaslaşmasını bakalavriat səviyyəsini "*Təhsil ixtisasları*" və "*İqtisadiyyat və idarəetmə*" qrupları üzrə müvafiq ixtisaslardan birini bitirən bakalavrlar seçə bilərlər.

“ADA” Universiteti, Hərbi Elmi Tədqiqat İnstitutunun, Hərbi İdarəetmə İnstitutunun, M.V.Lomonosov adına MDU-nun Bakı filialının, Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ), İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Akademiyasının, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının magistraturalarına qəbul olmaq istəyən bakalavrlar, müvafiq müsabiqə şərtlərini (bax: Cədvəl 1) ödədikləri halda, qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinə müraciət etməli və onların müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər. *Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının* magistraturasının tədrisi ingilis dilində olan “*İdman tibbi və reabilitasiyası*”, “*İdman menecmenti*” ixtisaslaşmalarına qəbul olmaq istəyən şəxslər müsabiqə şərtlərini (bax: Cədvəl 1), həmçinin Akademiya tərəfindən qoyulan tələbləri ödədikləri halda həmin ali təhsil müəssisəsinin müəyyən etdiyi qəbul prosedurlarından keçməlidirlər.

*Regionşünaslıq (Amerika üzrə), Regionşünaslıq (ABŞ və Kanada üzrə) və Regionşünaslıq (Böyük Britaniya üzrə)* ixtisaslaşmalarını qəbul imtahanında xarici dil kimi ingilis dilindən imtahan vermiş bakalavrlar seçə bilərlər.

*42 saylı* proqrama daxil olan *“Sosial iş”* ixtisasının “Gənclərlə iş”, “Əhalinin müxtəlif qrupları ilə sosial iş” və “Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş” ixtisaslaşmalarını 40 və daha çox bal toplayan və fənlər üzrə müsabiqə şərtlərini ödəyən bütün bakalavrlar seçə bilərlər.

Qəbul imtahanında 50 və daha çox, Jurnalistika üzrə qabiliyyət imtahanında 6 və daha çox bal toplayan, fənlər üzrə müsabiqə şərtlərini ödəyən bütün bakalavrlar bitirdiyi bakalavr ixtisasından asılı olmayaraq ***44 saylı*** proqrama aid təhsil müddəti 1,5 il olan ixtisaslaşmaları, Jurnalistika ixtisası üzrə bitirən bakalavrlar isə bütün ixtisaslaşmaları seçə bilərlər.

*56 saylı MBA* (Biznesin idarə edilməsi) proqramına aid ixtisaslaşmaları imtahanda 45 və daha çox bal toplayan və fənlər üzrə müsabiqə şərtlərini ödəyən bütün bakalavrlar bitirdiyi bakalavr ixtisasından asılı olmayaraq seçə bilərlər.

**5.** Magistraturada dövlət hesabına təhsil almış magistrlər ixtisaslaşmaların yalnız təhsili ödənişli əsaslarla olan yerlərinin kodlarını seçə bilərlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, ixtisaslaşmaların yalnız təhsili ödənişli əsaslarla olan yerlərinin kodlarını seçə bilərlər.

**6.** Seçilmiş ixtisaslaşmaların ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunur və bakalavr topladığı bala əsasən müsabiqədən keçdiyi ixtisaslaşmaların birincisinə yerləşdirilir.

**7.** Müsabiqə (xüsusi qabiliyyət imtahanı tələb olunan ixtisaslar istisna olmaqla) qəbul imtahanında toplanılan ballara əsasən aparılır.

Müsabiqə zamanı imtahan balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınır:

– bakalavriat səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);
– ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) yoxlayan testdən toplanılan bal;
– xarici dil üzrə toplanılan bal.

Xüsusi qabiliyyət imtahanı tələb olunan ixtisaslar üzrə müsabiqə qabiliyyət imtahanında toplanılan ballara əsasən aparılır.

Müsabiqə zamanı qabiliyyət imtahanında toplanılan balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir:

–magistraturaya qəbul imtahanında toplanılan bal;

–ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

–ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü) yoxlayan testdən toplanılan bal;

–xarici dil üzrə testdən toplanılan bal.

Ümumi balı eyni olan iki və daha çox bakalavrı bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisaslaşmaya yerləşdirilir.

**8.** Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisaslaşmaya qəbul olmuş bakalavrlar DİM tərəfindən müəyyən edilən müddətdə mygov ID (vahid giriş sistemi) vasitəsilə **my.gov.az** portalındakı şəxsi kabinetlərinə daxil olmalıdırlar. Daha sonra portalın “Xidmətlər” bölməsinin “Qurumlar” kateqoriyasından Elm və Təhsil Nazirliyini seçməli və burada təqdim olunan “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalanların qeydiyyatı” xidmətinə keçid etməlidirlər.

Bakalavrın bu müddətdə qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisaslaşma üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu bakalavrlar qəbul olunanların siyahısından xaric edilir.

**9.** Ali təhsil müəssisələrinin magistraturalarına keçirilən müsabiqə və onun nəticələri ilə bağlı vətəndaşların müraciətlərinə baxılması üçün Dövlət İmtahan Mərkəzində Apellyasiya Komissiyası fəaliyyət göstərir.

Bakalavr Apellyasiya Komissiyasına elektron qaydada müraciət etməlidir. Apellyasiya Komissiyasının qərarlarından inzibati qaydada və ya məhkəməyə şikayət verilə bilər.

**Hörmətli bakalavrlar!**

Müsabiqə şərtləri haqqında sizdə əyani və aydın təsəvvür yaratmaq üçün ixtisaslaşma seçimi haqqında elana əlavə olaraq aşağıdakı cədvəli təqdim edirik.

## Müsabiqə şərtləri

**Cədvəl 1**

| Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı** | İmtahanın nəticəsinə qoyulan minimal tələblər*** | | |
|---|---|---|---|
| | Fənlər üzrə minimal tələb | | İmtahan üzrə minimal bal |
| | Fənnin adı | Minimal bal | |
| **Təhsil ixtisasları qrupu**<br>**Texniki və texnoloji ixtisaslar qrupu**<br>**(Aqromühəndislik ixtisasından başqa)**<br>**İdman və xidmət ixtisasları qrupu**<br>**(Məşqçilik ixtisasından başqa)**<br>**Səhiyyə ixtisasları qrupu** | Xarici dil**** | **5** | **40 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Humanitar və sosial ixtisaslar qrupu*** | Xarici dil**** | **5** | **50 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Təbiət ixtisasları qrupu**<br>**İqtisadiyyat və idarəetmə ixtisasları qrupu** | Xarici dil**** | **5** | **45 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **15** | |
| **Mədəniyyət ixtisasları qrupu***<br>**Kənd təsərrüfatı ixtisasları qrupu**<br>**Xüsusi təyinatlı ixtisaslar qrupu**<br>**Aqromühəndislik ixtisası**<br>**Məşqçilik ixtisası** | Xarici dil**** | **5** | **30 bal** |
| | İnformatika | **5** | |
| | Məntiqi təfəkkürün yoxlanılması | **10** | |

* Xüsusi qabiliyyət imtahanı tələb olunan ixtisaslar üzrə ixtisas magistraturasına və jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanından sonra qabiliyyət imtahanı verməli və bu imtahandan ən azı 6 bal toplamalıdırlar ("Magistr" jurnalının 3-cü sayında qabiliyyət imtahanları barəsində ətraflı məlumat verilmişdir).

** Bax: https://e-qanun.az/framework/58365*#elave3*

***Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların dövlət sifarişi üzrə ayrılmış yerlərini seçmək üçün bakalavrın qəbul imtahanında ingilis (alman) dilindən topladığı bal 20-dən, ödənişli yerlərini seçmək üçün isə 15-dən az olmamalıdır, o cümlədən yazı işi (esse) tapşırığı üzrə nəticəsi 2-dən az olmamalıdır.

**** Xarici dil üzrə yazı işi (esse) tapşırığı üzrə nəticəyə (*** bəndində göstərilən ixtisaslaşmalar istisna olmaqla) bal məhdudiyyəti qoyulmur.

# “BAKALAVRIN ELEKTRON ƏRİZƏSİ"NDƏ İXTİSASLAŞMALARIN SEÇİMİ VƏ TƏSDİQİ ÜÇÜN TƏLİMAT

Bakalavr, ilk növbədə, ixtisasına uyğun qəbul olunmaq istədiyi ixtisaslaşmaları və müvafiq qəbul proqramlarını müəyyənləşdirir (bax: “Magistr” jurnalı, №3, 2026-ci il). Sonra isə **https://eservices.dim.gov.az/erizemag/erize** səhifəsinə daxil olub, şəxsi kabinetin istifadəçi adını və şifrəsini və ekranda əks olunan təhlükəsizlik kodunu daxil edir.




Şəkil 1. Sistemə daxil olmaq

Açılan səhifədə aktiv və istifadə olunan elektron xidmətlər əks olunur. **“Magistratura – ixtisaslaşma seçimi”** xidmətinin qarşısındakı “**Daxil ol**” düyməsini sıxaraq ərizəyə keçid edilir (şəkil 2).




Şəkil 2. İstifadə etdiyiniz xidmətlər

Bakalavr ekranda açılan səhifədə əvvəlcə müsabiqədə iştirak etmək istədiyi imtahan nəticəsini seçir. Bakalavr müsabiqə şərtini ödədiyi imtahan cəhdlərinin nəticələrindən müsabiqədə hansı ilə iştirak edəcəyini öz istəyi əsasında qeyd edir (şəkil 3).




Şəkil 3. İmtahan nəticəsinin seçimi

Bundan sonra ekranda ixtisaslaşma seçimi (seçdiyi ixtisaslaşmalar) cədvəli təsvir edilir. İxtisaslaşmanı seçmək üçün burada yerləşən “**Yeni ixtisaslaşma əlavə et**” düyməsini basır (şəkil 4). İxtisas kodunu əl ilə daxil edir və ya ... (**İxtisaslaşmaların siyahısını göstər**) (şəkil 5) düyməsini sıxaraq açılan siyahıdan ixtisas kodunu və adını seçir. Seçilən ixtisaslaşma üzrə təhsili dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla almaq istədiyini qeyd edir. Sonra daxil edilən məlumatları yadda saxlamaq üçün (**Yeni ixtisaslaşmanı yadda saxla**) düyməsini basır.




Şəkil 4. İxtisaslaşmaların seçimi

Bakalavr ərizəsində ixtisasına və imtahan nəticəsinə (və ya seçdiyi imtahan nəticəsinə) uyğun dövlət sifarişi əsasında və ödənişli əsaslarla olan 20-yə qədər ixtisaslaşma kodunu göstərə bilər. Eyni ixtisaslaşma kodu iki dəfə daxil edilə bilər. Lakin bu halda kodların qarşısındakı qeydlər (dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla) mütləq fərqli olmalıdır. İxtisaslaşma kodlarının sayını və ardıcıllığını bakalavr özü müəyyənləşdirir. **Seçilmiş ixtisaslaşma kodlarının ərizə formasında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunur və bakalavr müsabiqədən keçdiyi ixtisaslaşmaların birincisinə yerləşdirilir**.




Şəkil 5. İxtisaslaşmaların seçimi

**Seçilmiş ixtisaslaşmalar aşağıdakı tələbləri ödəməlidir**:

– bakalavrın seçdiyi magistr ixtisaslaşmaları onun bitirdiyi bakalavr ixtisasına müvafiq olmalıdır (bax: "Magistr" jurnalı, №3, 2026-cı il);
– ixtisaslaşma kodları elan olunmuş ixtisaslaşmalar siyahısından seçilməlidir (bax: "Magistr" jurnalı, №4, 2026-cı il);
– Azərbaycan bölməsinin bakalavrları Azərbaycan, rus bölməsinin bakalavrları isə rus bölməsinə aid olan ixtisaslaşmaların kodlarını seçməlidirlər.

**Diqqət! Bu tələbləri ödəməyən ixtisaslaşma kodları nəzərə alınmır.**

**Qeyd!** Yeni ixtisaslaşma hər dəfə cədvəlin sonuna əlavə olunur. (**İxtisaslaşmanın yerini dəyiş**) düyməsi vasitəsi ilə ixtisaslaşma ardıcıllığını təsdiqdən qabaq dəyişmək (istənilən sətri tutub yuxarı və ya aşağı dartıb yerini dəyişmək) mümkündür. (**Düzəliş et**) düyməsinin vasitəsi ilə ixtisaslaşmanı dəyişmək, (**Silmək**) düyməsinin vasitəsi ilə isə ixtisaslaşmanı silmək mümkündür (şəkil 5).

**Diqqət!** Yeni ixtisaslaşma əlavə etdikdə və ya mövcud ixtisaslaşmada düzəliş etdikdən sonra mütləq müvafiq olaraq (**Əlavəni yadda saxla**) və ya (**Düzəlişi yadda saxla**) düymələri sıxılmalıdır.

Ərizənin statusu hissəsində ixtisaslaşma seçimi ərizəsinin təsdiq olunub-olunmadığı və ya səhvlər haqqında məlumat qeyd olunur (şəkil 6). Səhvlər (varsa) aradan qaldırıldıqdan sonra ərizəni təsdiq etmək üçün "**Təsdiq et**" düyməsini sıxmaqla açılan xəbərdarlıq bildirişi qəbul olunaraq ərizə təsdiq edilir.

**Diqqət**! Müsabiqəyə yalnız "Bakalavrın elektron ərizəsi"ndə ixtisaslaşmaları seçmiş və təsdiq etmiş bakalavrlar buraxılacaqlar. Ərizədə təsdiq edildikdən sonra heç bir dəyişiklik etmək mümkün olmayacaqdır.




Şəkil 6. Ərizənin təsdiqi bölməsi

Təsdiqlənmiş ərizəni çap etmək üçün "**Çap**" düyməsi sıxılır.

Məxfiliyi təmin etmək və kənar şəxslərin müdaxiləsinin qarşısını almaq üçün ərizə səhifəsinin yuxarı sağ hissəsində yerləşən "**Çıx**" düyməsi sıxılmalıdır.